

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

Qəzet 1921-ci ildən çıxır

# ŞƏRQ qapısı

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 19 (21.171)

29 yanvar 2015-ci il, cümə axşamı

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Rəsmi xronika



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 28-də İran İslam Respublikasının İqtisadi Məsələlər və Maliyyə naziri Əli Tayebnianın başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

Dövlətimizin başçısı nazir Əli Tayebnianın başçılıq etdiyi nümayəndə heyətinin Azərbaycana səfərinin uğurlu və gələcək əməkdaşlığın perspektivlərinin müəyyənləşdirilməsi baxımından önəmli olacağına əminliyini ifadə etdi. Prezident İlham Əliyev ölkələrimiz arasında iqtisadi sahədə əməkdaşlıq üçün yaxşı imkanların olduğunu vurğuladı.

Nazir Əli Tayebnia Azərbaycan və İran prezidentlərinin səyləri sayəsində ikitərəfli münasibətlərimizin inkişafının yeni mərhələyə qədəm qoyduğunu vurğuladı. İranlı nazir azərbaycanlı həmkarları ilə birlikdə ikitərəfli əlaqələrimizin müxtəlif sahələrdə daha da genişləndirilməsi istiqamətində səylərini əsirgəməyəcəklərini dedi.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2015-ci il 28 yanvar tarixli Sərəncamı ilə xidməti vəzifələrini yerinə yetirərkən fərqləndiklərinə görə Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin bir qrup əməkdaşı təltif edilmişdir. Təltif olunanlar arasında Naxçıvan Muxtar Respublikası Dövlət Gömrük Komitəsinin əməkdaşları da vardır.

**"Dövlət qulluğunda fərqlənməyə görə" medalı ilə**

Bağırov Zaur Yolçu oğlu

Məmmədov Hicran Teymur oğlu

Pənahov Pənah Yaşar oğlu

**Azərbaycan Respublikasının Prezidenti İlham ƏLİYEV:** ***Bu gün yüksək potensiala malik muxtar respublika bütün dövlət proqramlarını, infrastruktur layihələrini böyük uğurla həyata keçirməsi sayəsində ölkədə dinamik inkişaf xəttinə uyğun, fasiləsiz aparılan irimiqyaslı quruculuq, abadlıq işlərinin fəal iştirakçısıdır. Naxçıvan hazırda mötəbər beynəlxalq tədbirlərin təşkil olunduğu məkana çevrilmişdir.***

# Ötən il ictimai-siyasi həyatda möhtəşəm uğurlarla yadda qaldı

## *Beynəlxalq tədbirlərin keçirildiyi məkana çevrilən Naxçıvanın regional cazibə mərkəzi olduğu bir daha təsdiqləndi*

***Tarixin son beş min ilində Naxçıvan torpağında neçə-neçə sivilizasiyanın izlərini qoymuş insanların çağdaş varisləri bu gün, sözün həqiqi mənasında, qədim diyarda xariqələr yaradırlar. Blokada şəraitində yaşamasına baxmayaraq, muxtar respublikanın bütün sahələrində əldə etdiyi nailiyyətlər də belə deməyə əsas verir. Qədim diyarın şanlı tarixinə "Muxtariyyət ili" kimi daxil olan 2014-cü ilin siyasi mənzərəsinə nəzər yetirdikdə isə bir daha aydın olur ki, mühüm geostrateji əhəmiyyətə malik olan Naxçıvanın sosial-iqtisadi, mədəni inkişafı onu həm də beynəlxalq səviyyəli tədbirlərin keçirildiyi məkana çevirib.***

Məlum olduğu kimi, 2014-cü il fevral ayının 9-da Naxçıvan Muxtar Respublikasının yaradılmasının 90 illiyi tamam oldu. Bu səbəbdən Naxçıvan Muxtar Respublikası Ali Məclisinin 2013-cü il dekabrın 28-də keçirilən dördüncü çağırış səkkizinci sessiyasında 2014-cü il muxtar respublikada "Muxtariyyət ili" elan olundu. Azərbaycan Prezidenti cənab İlham Əliyevin "Naxçıvan Muxtar Respublikasının 90 illik yubileyinin keçirilməsi haqqında" 2014-cü il 14 yanvar tarixli Sərəncamı, həmçinin Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2014-cü il yanvarın 17-də imzaladığı Sərəncamla "Naxçıvan Muxtar Respublikasının 90 illik yubileyinə dair Tədbirlər Planı"nın təsdiq olunması ötən il muxtar respublikada ictimai-siyasi əhəmiyyətə malik tarixi tədbirlərin keçiriləcəyindən xəbər verirdi.

Təbii ki, bu tədbirlərin zirvə nöqtəsi ötən il aprelin 8-də Azərbaycan Respublikası Prezidentinin iştirakı ilə keçirilən Naxçıvan Muxtar Respublikasının 90 illik yubileyinə həsr olunmuş təntənəli mərasim idi.

Dövlət başçısı təntənəli mərasimdəki nitqində qədim diyarın tarixindən, Naxçıvana muxtariyyətin verilməsinin siyasi əhəmiyyətindən danışaraq dedi: ***"Naxçıvanın eyni zamanda qədim dövlətçilik tarixi vardır. Qədim Atabəylər dövlətinin mərkəzi Naxçıvan idi. Təsadüfi deyil ki, Naxçıvana 90 il bundan əvvəl Azərbaycanın tərkibində muxtariyyət statusu verilmişdir. Bu, gözəl hadisə idi, tarixi hadisə idi. Naxçıvanın rolunu, bu diyarın strateji əhəmiyyətini əks etdirən bir qərar idi".***

Ölkə rəhbəri yubiley mərasimində muxtar respublikada əldə edilən uğurları yüksək qiymətləndirib: ***"Naxçıvan sürətlə inkişaf edir. Naxçıvanda bütün məsələlər uğurla icra edilir. Bu səfər mənim Naxçıvana son 10 il ərzində 11-ci səfərimdir. Demək olar ki, hər il Naxçıvana gəlirəm, burada gedən inkişafla tanış oluram. Sevinirəm ki, bu gün Naxçıvan çiçəklənən bir diyardır..."***

Naxçıvan Muxtar Respublikasının 90 illik yubileyi ilə bağlı növbəti möhtəşəm tədbir isə ötən il iyulun 4-5-də "Naxçıvanın muxtariyyəti tarixi nailiyyətdir" mövzusunda keçirilən Beynəlxalq Konfrans oldu. Mötəbər beynəlxalq tədbirdə Azərbaycanın görkəmli alim və tədqiqatçıları, Türkiyə Respublikasından, Rusiya Federasiyasından və Amerika Birləşmiş Ştatlarından elmi-tədqiqat müəssisələrinin, ali təhsil məktəblərinin nümayəndələri, mütəxəssislər iştirak edirdilər.

Konfransda iştirak edən bütün qonaqlar məruzələrində Naxçıvanın bugünkü heyrətamiz inkişafı barədə də söz açdılar. Bildirildi ki, müasir Naxçıvan dünyaya yeni intibahın nümunəsini göstərir. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin ölkəmizin digər regionları ilə birlikdə Naxçıvan Muxtar Respublikasının da inkişafına göstərdiyi böyük qayğı burada sürətli inkişafa təkan vermişdir.



Yuxarıda qeyd olunduğu kimi, muxtar respublikada infrastruktur layihələrinin uğurla həyata keçirilməsi nəticəsində başda Naxçıvan şəhəri olmaqla, bütün rayon mərkəzlərinin və kəndlərin abadlaşması, bütün sahələr üzrə əhəmiyyətli nailiyyətlərin qazanılması burada yüksəksəviyyəli beynəlxalq tədbirlərin keçirilməsinə şərait yaradıb.

Ötən ilin may ayında Naxçıvan Şahmat Mərkəzində ümummilli lider Heydər Əliyevin anadan olmasının 91-ci ildönümünə həsr olunmuş "Naxçıvan Open-2014" Beynəlxalq Şahmat Festivalının keçirilməsi də bunu sübut edir. Doqquz ölkədən 300-dən artıq şahmatçının Naxçıvana gəlməsi festivala olan beynəlxalq marağın göstəricisi idi. 2014-cü ilin may ayında muxtar respublikada gənclər arasında sərbəst güləş üzrə "Naxçıvan kuboku" uğrunda beynəlxalq yarışın keçirilməsi regionumuzda beynəlxalq idman yarışlarının təşkili üçün ən müasir infrastrukturun qurulduğunu bir daha bütün dünyaya nümayiş etdirdi.

2014-cü ildə Naxçıvan daha bir əhəmiyyətli beynəlxalq tədbirə ev sahibliyi etdi. Oktyabrın 24-də Naxçıvan şəhərində Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının 3-cü Biznes Forumu və Türkdilli Dövlətlərin Biznes Şurasının 3-cü Toplantısı keçirildi. Biznes forumda dəfələrlə bildirildi ki, 23 il blokada şəraitində yaşamasına baxmayaraq, muxtar respublikanın sürətli inkişafı, tərəqqisi, gündən-günə gözəlləşməsi türkdilli xalqların nümayəndələri tərəfindən rəğbətlə qarşılanır.

Naxçıvan Muxtar Respublikasının mühüm və həssas geosiyasi məkanda yerləşməsi elmi şəkildə əsaslandırılmış çevik, tarazlı və çoxtərəfli əlaqələrin qurulmasını, tarixi-mədəni bağlarımız olan qonşularla münasibətlərin inkişafını tələb edir. Bu baxımdan da 2014-cü il muxtar respublika üçün uğurlu oldu.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Türkiyə Respublikasının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri İsmail Alper Coşkunla, İran İslam Respublikasının Azərbaycan Respublikasındakı fövqəladə və səlahiyyətli səfiri Möhsün Pakayinlə, Türkiyənin muxtar respublikaya yeni təyin olunmuş Baş konsulu Nihat Ərşənla, Türkiyə Silahlı Qüvvələrinin muxtar respublikada səfərdə olan nümayəndə heyəti ilə görüşüb. Görüşlərdə ölkələrimiz arasında həm siyasi, həm də iqtisadi sahədə əlaqələrin mövcud olduğu diqqətə çatdırılıb, bu əlaqələrin inkişafında Naxçıvan Muxtar Respublikasının mühüm əhəmiyyət daşıdığı bir daha vurğulanıb, ikitərəfli münasibətlərin inkişafı istiqamətində bundan sonra da qarşılıqlı səylərin göstəriləcəyinə inam ifadə edilib.

Ali Məclis Sədrinin muxtar respublikaya səfərə gələn Türkiyə Respublikasının İqdır Vilayətinin valisi Davut Hanerlə, İran İslam Respublikasının Qərbi Azərbaycan Vilayətinin ostandarı Qurbanəli Səadətlə görüşlərində qonşu ölkələrin yaxın bölgələri ilə muxtar respublika arasındakı əlaqələrin inkişafının əhəmiyyəti xüsusi vurğulanıb.

Ötən il avqustun 18-də Türkiyə Cümhuriyyətinin Milli Müdafiə naziri İsmət Yılmazın və Gürcüstan Respublikasının Müdafiə naziri İrakli Alasaniyanın Azərbaycan, Türkiyə və Gürcüstan Müdafiə nazirlərinin üçtərəfli görüşündə iştirak etmək üçün Naxçıvan Muxtar Respublikasına səfərə gəlməsi Naxçıvanın həm də regional əməkdaşlıq məkanına çevrildiyinin göstəricisidir.

Azərbaycanın Naxçıvan Muxtar Respublikası ilə Gürcüstanın Acarıstan Muxtar Respublikası arasında da əlaqələr uğurla inkişaf edir. Muxtar respublikalar arasında qarşılıqlı rəsmi səfərlər ikitərəfli münasibətləri yeni inkişaf mərhələsinə yüksəldib. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Gürcüstanın Acarıstan Hökuməti Sədrinin dəvəti ilə 2014-cü il iyulun 28-də Batumiyə səfəri, oktyabrın 4-də isə Gürcüstanın Acarıstan Muxtar Respublikası Ali Sovetinin Sədri Avtandil Beridzenin Naxçıvana səfəri zamanı keçirilən görüşlərdə qarşılıqlı, faydalı əlaqələrin gələcəkdə də sürətlə inkişaf edəcəyi qeyd olunub.

Ötən il Avropa Şurası Parlament Assambleyasının Avropa Şurası Üzv Dövlətləri Tərəfindən Öhdəliklərin Yerinə Yetirilməsi üzrə Komitəsinin həmməruzəçiləri Pedro Aqramunt və Cozef Debono-Qrexin, Norveç Krallığının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Erlinq Şönsberqin, Yaponiyanın ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Tsuquo Takahaşinin, Belarus Respublikasının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Nikolay Paskeviçin, Pakistan İslam Respublikasının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Xalid Usman Qayserin, Amerika Birləşmiş Ştatlarının Azərbaycandakı Səfirliyinin müvəqqəti işlər vəkili Derek Hoqanın, Koreya Respublikasının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Çoi-Suk İnin muxtar respublikamıza səfərləri Naxçıvanın iqtisadi, siyasi, mədəni baxımdan regional mərkəzə çevrildiyinin göstəricisidir.

Naxçıvanda "Muxtariyyət ili" artıq geridə qalıb. Ötən il əldə olunan nəticələr, qazanılan uğurlar 2014-cü il dekabrın 27-də dördüncü çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin onuncu sessiyasında bir daha qeyd olunub. Sessiyada Ali Məclisin Sədri deyib: ***"Muxtariyyət ili"ndə əldə olunmuş nəticələr sosial-iqtisadi inkişafa davamlı xarakter vermişdir. Qəbul olunmuş mühüm dövlət proqramlarının uğurlu icrası nəticəsində iqtisadiyyatın çoxşaxəli inkişafına, məşğulluğun artırılmasına nail olunmuş və bu inkişafın davamlı olması məqsədilə 2014-cü il sentyabrın 1-də Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2014-2018-ci illəri əhatə edən 3-cü Dövlət Proqramı qəbul olunmuşdur. Bütün bunlar muxtar respublikanın iqtisadi cəhətdən daha da qüdrətlənməsinə, makroiqtisadi dinamikanın qorunub saxlanmasına səbəb olmuşdur".***

*Bu gün sürətlə inkişaf edən Naxçıvan Muxtar Respublikası özünün intibah dövrünü yaşayır. Dünyanın heç bir yerində blokada şəraitində yaşayan bir məkan bu səviyyədə sürətli iqtisadi yüksəlişə nail ola bilməyib. Məhz bu yüksəlişin nəticəsində Naxçıvan həm də mötəbər beynəlxalq tədbirlərin keçirildiyi məkana çevrilib.*

**Rauf ƏLİYEV**

# Yeniliklər hər tərəfdə göz oxşayır

***Böyük yolların kökü xırda cığırlardadır. Əsrlər öncə – qədimlərdə insanlar elə bu xırda cığırlarla dünyanın şərqindən qərbinə, cənubundan şimalına gediblər və gəzə-gəzə böyük yolların əhəmiyyətini duyublar. Dünya böyük olduğu üçün böyük yollara ehtiyac çoxalıb. Beləcə, hava, su, torpaq yolları yaranıb və insan ömrünün yarıdan çoxu, deyilənlərə görə, elə bu yollarda keçir. Evimizdən başlanan yol haçalanıb məmləkətlərə, ölkələrə, okeanlara, dənizlərə qədər aparır bizi.***

Sovet dönəmlərində nəşr olunan və ötən əsrdən yadigar qalan respublikanın mərkəzi qəzetlərindən birinin səhifəsindən oxuyuram: "...Hər kəs kimi, mən də hər səhər evimdən çıxıb işə getməkçün küçəyə çıxıram – "Gənclər dostluğu" küçəsinə. Dayanacağa tərəf üz tuturam. Beşaddımlıq yolda nələr görmürəm? Elə bil burada yaşayanların hamısı "dostluq" yox, "düşmənçilik" küçəsinin sakinləridir. Burada gözədəyən hər şey – binaların daş divarları da, səkilərdəki ağaclar da, yolun asfaltı da bu sakinlərin "qayğısı" ilə sanki "yara" alıblar. Elə bil yola-irizə göydən yağış yerinə natəmizlik yağıb. Haradansa yadıma Pekin, Tokio, Sinqapur şəhərləri və onların küçələri düşür...

Eşitdiyimə görə, bir nəfər turist Sinqapurun küçələrini səkkiz gün gəzmiş, lakin bir papiros kötüyü tapmamışdır. Bu axtarış bizim respublikamızda aparılsaydı, yəqin ki, yığılan papiros kötüyü ilə Yer kürəsini bir neçə millimetr qalınlığında örtmək olardı..."

Professor İ.Topçubaşovun imzası olan həmin yazıda daha sonra oxuyuram: "Tokionun küçələrində ağ köynəyi yerə sürtsən, ləkə düşməz. Sinqapurda küçəyə papiros kötüyü atanlar 5 min dollar cərimə olunurlar. Bizim küçələri gəzərkən də adama elə gəlir ki, bu natəmizlik üçün sanki "mükafat" ayrılıb.

Respublikamızda "Gənclər dostluğu" kimi küçələr minlərlədir. Onlardan hər birini gəzərkən ürəkağrıdan belə mənzərələrlə rastlaşmamaq mümkünsüzdür. Üzümü xalqımıza tutub təvəqqe edirəm: gəlin bir qədər evimizin yolundan kənara çıxaq, daha geniş, ictimai əhəmiyyət kəsb edən böyük küçələrdən keçək. Gözümüz kor, qulağımız kar olmasın. Gözəllik yaratmaq üçün insan olduğumuzu unutmayaq ki, bəlkə, dünyadakı o gözəlliyin bir nişanəsini biz də Vətənimizdə yaradaq..."

Saralmış bu qəzet səhifəsindən oxuduğum fikirlər Azərbaycan xalqının ziyalı bir vətənpərvər oğlunun insanlığa çağırış harayı idi. Dünyanın gözəlliyinə həsəd aparan belə insanlar o vaxt da ölkəmizi bugünkü kimi təmiz, səliqəli, gül-çiçək, yaşıllıq içində görmək, Sinqapur, Tokiodakı kimi könülaçan mənzərələrlə seyr etmək arzusu ilə yaşayıblar.

Bu gün ölkəmizdə, eləcə də onun ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasında görülən işlər, həyata keçirilən tədbirlər, yaradılan gözəlliklər, tətbiq olunan yeniliklər, saymaqla qurtarmayan müasirlik nişanələri illərlə bu gözəllikləri görmək arzusu ilə yaşayan insanların ən böyük diləkləri olub. Yenidənqurma siyasəti regionların büsbütün gözəlliyi ilə yanaşı, səliqə-sahmana, təmizliyə ciddi əməl olunması ab-havasını da bəxş edib yurd yerlərimizə. Deməli, muxtar respublikamızda Heydər Əliyev ideyalarına, siyasətinə sadiqlik belə böyük arzularla yaşayan Vətən övladlarına bəxş edilən bir mükafatdır. İndi muxtar respublikamız, onun rayonları dünyanın istənilən müasir şəhəri ilə müqayisə ediləcək qədər gözoxşayandır. Belə gözəlliklər içərisində göz işlədikcə uzanan yollarımız da var. Buna görə də yolların bərpasından və onların yenidən qurulmasından qısaca söhbət açmaq istəyirəm.



Yol müqəddəsdir deyirlər. Bəlkə, elə onun bəzən and yerimiz olması da o müqəddəslikdən xəbər verir. Yol həm də iqtisadiyyatın göstəricisidir. Atalarımızın unudulmayan bir məsəli də var: "Abad yurd yolundan bəlli olar".

Bu gün tərəqqi yollarında inamla addımlayan müstəqil ölkəmizin hər yerində olduğu kimi, muxtar respublikamızda da yolların yenidən qurulması, alternativ yolların salınması, körpülərin, suötürücülərin tikintisi diqqət mərkəzindədir və bu iş böyük həcmdə həyata keçirilməkdədir. Şahbuz rayonunda da bu sahədə hələ bir neçə il öncə başlayan işlər indi daha da geniş vüsət alıb.

Şahbuz rayonunun müxtəlif istiqamətlərdə yerləşən kəndlərinə uzanan yollar yenidən qurulur. İndi də bu iş davam etdirilir. Bu gün şəhərdaxili yolların təmiri, yenidən qurulması, müasir standartlara uyğunlaşdırılması istiqamətində işlər məqsədyönlü şəkildə aparılır. Hazırda Şahbuz şəhərinin "28 May", S.Vurğun küçələrinin Heydər Əliyev prospekti ilə kəsişdiyi məhəllədaxili yolların, həmçinin şəhərin bir neçə yerindən keçən yolların yenidən qurulması, müasir formada istifadəyə verilməsi də quruculuq siyasətinin rayonumuza ərməğanıdır desək, yanılmarıq. Muxtar respublikamızda və onun rayonlarında həyata keçirilən hərtərəfli quruculuq tədbirlərini yüksək qiymətləndirən ölkə başçısı demişdir: ***"Bizim əsas vəzifəmiz, əsas məqsədimiz ondan ibarətdir ki, Azərbaycanın hər bir bölgəsi inkişaf etsin. Hər bir bölgədə abadlıq, quruculuq işləri aparılsın. Yollar çəkilsin ki, insanlar daha yaxşı yaşasınlar".*** Ölkə başçısı cənab İlham Əliyevin müəyyən etdiyi bu vəzifələr ölkəmizin hər yerində olduğu kimi, muxtar respublikamızın bir parçası olan Şahbuz rayonunda da uğurla həyata keçirilir. Burada tikilən müasir məktəb binaları, sosial obyektlər, təmir edilən yaşayış və inzibati binalar, yeni salınan yol və səkilər, körpülər, yaradılan səliqə-sahman, yaşıllıqlar insanlara estetik və mənəvi zövq verir, onlara rahat yaşayış təminatı yaradır. Rayonda aparılan quruculuq, abadlıq işləri nizamla, planlı surətdə həyata keçirildiyindən hər bir kənd, qəsəbə bu gözəllikdən pay alır. Diqqətçəkən məqamlardan biri də odur ki, rəvan və planlı surətdə həyata keçirilən yenidənqurma tədbirləri sakinlərin məişət şəraitindən tutmuş iş yerinə qədər arzuolunan şəraitin yaradılmasına stimul verir. Kəndlərdə belə yeniləşmə, müxtəlif kommunal xidmətlərin yaradılması isə hər bir yaşayış məskənində şəhər şəraitinin təminatına səbəb olur.

Şahbuz şəhərinin müxtəlif istiqamətlərinə uzanan geniş küçələrin, yolların müasir görünüşü könül açır. Həmin yolların kənarlarına əkilmiş həmişəyaşıl ağacların yayda kölgəsi, qışda hər tərəfin bəyaz örpəyə büründüyü vaxt yaşıl görünüşü bu yolları daha da füsunkar edir. Şahbuzun avtomobil yolları, demək olar ki, yenidən qurulub, müasir tələblərə uyğunlaşdırılıb. Bu yolların şaxələnib qərinələr öncə tikilən evlərin, məhəllələrin arası ilə uzanaraq uzaqları yaxın etməsi nə qədər xoş idisə, o yolların illərlə dar və cansıxıcı olması könül bulandırırdı. Və heç kəs də inana bilmirdi ki, sovet dönəmlərinin başlı-başına vədəsində zəbt olunub həyətlərə qatıldığından cığırlara çevrilən məhəllələrarası yollar da yenidən qurula, bərpa oluna bilər. Vətəndaşlar tərəfindən 50-60 il öncə mənimsənilmiş və şəxsi torpaq sahələri kimi istifadə olunduğundan yollar da həmin vaxtlardan unudulmuşdu. Lakin bu gün hər bir sahədə olan nöqsanlar, çatışmazlıqlar aradan qaldırıldığı kimi, bu sahədə də problemlər köklü surətdə öz həllini tapıb. Yenidənqurma nəticəsində Şahbuz şəhərinə gözəllik naxışları vuruluduqca həmin yolların da yeniləşməsi həyata keçirilir. Hazırda Şahbuz şəhərinin Heydər Əliyev prospekti, "28 May", S.Vurğun, Əcəmi, "Bakı", İ.Əfəndiyev və başqa küçələrinin hamısı müasir formada əhalinin istifadəsindədir. Çünki şəhərdaxili yollarda olduğu kimi, məhəllələrarası yolları da hər iki tərəfdən "müşaiət" edən çəpərlər, hasarlar söküldü, yollar müasir formada istifadəyə verildi.

Sevindirici hal budur ki, yolları yenidən qurulan Şahbuz şəhərində yeni kanalizasiya və içməli su xətlərinin çəkilişi də yekunlaşmaq üzrədir. Bütün bunlar barədə rayon İcra Hakimiyyətinin Memarlıq və tikinti şöbəsinin müdiri Şəmsəddin Həsənov bildirdi ki, uzun illər rayonda kanalizasiya xətti olmadığından yaşayış evlərində normal kommunal şərait yaradılmamışdı. Bu isə müxtəlif çətinliklərin və problemlərin yaranmasına səbəb olurdu. Lakin rayonumuzda quruculuq işləri geniş vüsət aldığı vaxtlardan başlayaraq yeni tikilən sosial obyektlərdə, inzibati binalarda, həmçinin yenidən qurularaq müasir formada istifadəyə verilən ictimai yaşayış binalarında kanalizasiya sistemi qurulmuşdur. Ötən illər ərzində Şahbuz şəhərindəki 18, 19, 20, 21 nömrəli ictimai yaşayış binalarının təmiri zamanı yeni içməli su, kanalizasiya xətləri də çəkildi.

İstər inzibati binaların təmiri, yenidən qurulması, istərsə də magistral və şəhərdaxili yolların, səkilərin salınması, kanalizasiya və su xətlərinin çəkilişi işi böyük həvəslə, məsuliyyətlə həyata keçirilir. Ona görə ki, hər kəs tapşırılan işin məsuliyyətini dərk edir, vəzifəsinin öhdəsindən gəlməyə çalışır.

*Bu yurda Tanrı bəxşişi olan təbii gözəllikləri tamamlayan insan əlinin zəhməti Şahbuzu müasir rayona çevirib.*

**Şəhla NƏBİYEVA**

***Ötən il avqust ayının 5-də Naxçıvan Muxtar Respublikası Ali Məclisində 2014-2015-ci ilin payız-qış mövsümünə hazırlıq və qarşıda duran vəzifələrlə əlaqədar keçirilən müşavirədə Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinə də təhsil müəssisələrinin payız-qış mövsümündə fasiləsiz fəaliyyətinin təmin olunması ilə bağlı konkret tapşırıqlar verilib.***

# Qış mövsümündə təhsil müəssisələri fasiləsiz fəaliyyət göstərir

Qeyd edək ki, 2014-2015-ci tədris ilində Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin tabeliyində 8 rayon (şəhər) Təhsil Şöbəsi, 215 ümumtəhsil məktəbi, 44 məktəbdənkənar müəssisə, 2 orta ixtisas məktəbi, 1 peşə liseyi və 4 texniki-peşə məktəbi fəaliyyət göstərir.

Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin mətbuat xidmətindən aldığımız məlumata görə, ümumilikdə, muxtar respublikada istilik sistemi quraşdırılmayan 68 təhsil müəssisəsinə fasiləsiz iş prosesinin təmin edilməsi məqsədilə payız-qış mövsümündə kifayət qədər yanacaq, soba, soba borusu, dirsək, şüşə, şifer, polietilen örtük və sair mal-material verilib. Verilən mal-material və yanacaq mərkəzləşdirilmiş qaydada rayonlar üzrə bölünüb, onların səmərəli istifadə olunması nəzarətə götürülüb, mal-materialın təyinatı üzrə düzgün istifadə edilməsi, məktəblərdə təhlükəsizlik qaydalarına əməl olunması üçün reydlər keçirilib. Nəticədə, 2014-2015-ci tədris ilində ümumtəhsil məktəbləri və digər təhsil müəssisələrinin iş qrafiki pozulmadan tədris prosesi və təlim-tərbiyə işi fasiləsiz olaraq həyata keçirilir.

Gələcək perspektiv nəzərə alınaraq həyata keçirilən məktəb tikintiləri müasir istilik sistemlərinə qoşulan təhsil müəssisələrinin sayının sürətlə artmasına şərait yaradır. 2014-cü ildə aparılan tikinti-quruculuq işləri başa çatdıqdan sonra muxtar respublikamızda daha 19 təhsil müəssisəsi payız-qış mövsümündə müasir istilik sisteminə qoşulub. Nəticədə, cari tədris ilində 275 təhsil müəssisəsindən rayon (şəhər) Təhsil şöbələri də daxil olmaqla, müasir istilik sistemləri ilə işləyən müəssisələrimizin sayı 207 olub.

Yeni məktəblərin tikilməsi və müasir istilik sistemlərinə qoşulması birnövbəli məktəblərin də sayının artmasına səbəb olub. Belə ki, 2014-2015-ci tədris ilində muxtar respublikada fəaliyyət göstərən 215 ümumtəhsil məktəbindən 203-ü 5 günlük iş həftəsi ilə, 12-si isə 6 günlük iş həftəsi ilə işləyir. Bu da, öz növbəsində, tədrisin keyfiyyətinin əhəmiyyətli dərəcədə yüksəlməsinə öz töhfəsini verməkdədir.

**Xəbərlər şöbəsi**

# Ötən il muxtar respublikada 1190 ədəd şəxsi avtomobil ilkin qeydiyyatdan keçirilib

***Naxçıvan Muxtar Respublikasında həyata keçirilən genişmiqyaslı tikinti-quruculuq işləri, insanların sosial müdafiəsinin daha da gücləndirilməsi, yeni iş yerlərinin açılması keyfiyyətcə yeni mərhələyə qədəm qoyub.***

Həyati əhəmiyyətli problemlərin aradan qaldırılması, kənd təsərrüfatı məhsullarının istehsalında irəliləyiş, sənaye, tikinti, nəqliyyat və rabitə sahələrindəki inkişaf, yeni xidmət və digər infrastruktur obyektlərin istifadəyə verilməsi, məşğulluğun səviyyəsinin yüksəldilməsi və digər zəruri tədbirlərin həyata keçirilməsi muxtar respublikanı regionda ön mövqeyə çıxarıb. Həyata keçirilən tədbirlər nəticəsində insanların daha yaxşı yaşaması təmin olunub. Təbii ki, əhalinin gəlirləri artdıqca tələbat da artır. Hazırda bu tələbat bir çox sahələrdə, xüsusən də muxtar respublikaya xarici, eləcə də brend marka avtomobillərin alınıb gətirilməsində özünü göstərir.





Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyinin Dövlət Yol Polisi İdarəsindən aldığımız məlumata görə, yanvar ayının 26-sı tarixinə muxtar respublikada 37 min 993 avtomobil qeydiyyatdadır. Onlardan 2707-si dövlət qurumlarına aid, 35 min 286-sı isə şəxsi avtomobillərdir. Ötən il 1190 ədəd şəxsi avtomobil alınıb və sözügedən idarə tərəfindən ilkin qeydiyyatdan keçirilib. Avtomobillərin əksəriyyəti dünyanın ən öndə gedən markalarına məxsus olub. 2014-cü ildə muxtar respublikada ilkin qeydiyyatdan keçən avtomobillərin sayı 2013-cü ilə nisbətdə çox olub.

Qeyd edək ki, köhnə, sovet istehsalı olan və günün tələblərinə cavab verməyən avtomobillərin sayında ilbəil azalma müşahidə edilir. Muxtar respublikada sənayedə tətbiq olunan müasir texnologiyalar bu sahənin innovativ yükünü artırır, iqtisadiyyatın digər sahələrinə öz sürətləndirici təsirini göstərir. Sənaye məhsulu istehsalının genişləndirilməsi istiqamətində aparılan işlər regionda yüksək texnologiyalı sənaye müəssisələrinin yaradılması və regionun iqtisadi təhlükəsizliyinin təmin olunmasına xidmət edir. 2010-cu ildən fəaliyyət göstərən Naxçıvan Avtomobil Zavodu da istehsal imkanlarını genişləndirməklə muxtar respublikanın sənaye potensialının artırılmasına öz töhfəsini verir. Birnövbəli iş rejimində illik istehsal gücü 5 min ədəd avtomobil olan Naxçıvan Avtomobil Zavodunda istehsal edilən avtomobilləri indi yollarımızda teztez görürük.

Təbii ki, lüks avtomobillər üçün ən müasir standartlara cavab verən yollar lazımdır. Ümumiyyətlə, əhalinin bahalı və lüks avtomobilləri seçməsinin səbəblərindən biri gəlirlərin artmasıdırsa, digər səbəbi isə muxtar respublikadakı yol infrastrukturunun ən yüksək səviyyədə qurulmasıdır. Muxtar respublikada ən müasir yol-nəqliyyat kompleksinin yaradılması istiqamətində həyata keçirilən tədbirlər avtomobil istifadəçilərinin "Yaxşı yol"a çıxmasını təmin edib.

**Səbuhi HÜSEYNOV**

## Əmək pensiyalarının sığorta hissəsi artırılıb

*Bu, muxtar respublikada ümumi əmək pensiyaçılarının 93 faizinə şamil olunacaq*

*Ümummilli lider Heydər Əliyevin 2001-ci il 17 iyul tarixli Sərəncamı ilə təsdiq olunan “Azərbaycan Respublikasında pensiya islahatı Konsepsiyası”nın uğurlu icrası nəticəsində əmək pensiyalarının müntəzəm artırılması, pensiyaların vaxtlı-vaxtında mütərəqqi ödəniş vasitəsi hesab olunan plastik kartlarla ödənişinin həyata keçirilməsi mümkün olmuşdur.*

Ölkəmizdə bazar münasibətləri sisteminin bərqərar olması əhalinin sosial müdafiəsi və pensiya təminatı sahəsində köklü dəyişikliklərin həyata keçirilməsini, beynəlxalq təcrübədə özünü doğrultmuş müasir sosial müdafiə sistemlərinin tətbiqini zəruri etmişdir. Hazırda ölkəmizdə qocaların və gənc nəslin sosial müdafiəsinə diqqət artırılmaqla sağlam mənəvi mühitin yaradılması istiqamətində məqsədyönlü tədbirlər davam etdirilir. Bu tədbirlərdən ən vacib olanı isə yaşa görə əmək pensiyalarının baza hissəsinin və sığorta hissəsinin mütəmadi olaraq artırılmasıdır.

Azərbaycan Respublikası Prezidentinin 27 avqust 2013-cü il tarixli Sərəncamına əsasən, yaşa görə əmək pensiyasının baza hissəsinin məbləği 2013-cü il sentyabrın 1-dən 100 manat müəyyən edilmişdir.

“Əmək pensiyaları haqqında” Azərbaycan Respublikası Qanununun 29.2-ci maddəsinə əsasən, əmək pensiyasının sığorta hissəsi, o cümlədən bu qanun qüvvəyə mindiyi günədək qazanılmış əmək pensiyasının sığorta hissəsi və fərdi uçot sistemində fərdi hesabların sığorta hissəsində toplanan pensiya kapitalı ildə bir dəfədən az olmamaqla Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi tərəfindən müəyyən olunan istehlak qiymətləri indeksinin illik səviyyəsinə uyğun ölkə Prezidentinin müvafiq sərəncamlarına əsasən indeksləşdirilir. İmzalanmış müvafiq sərəncamlara əsasən, əmək pensiyalarının sığorta hissəsi 2007-ci ildə 8,3 faiz, 2008-ci ildə 16,7 faiz, 2009-cu ildə 20,8 faiz, 2010-cu ildə 1,5 faiz, 2011-ci ildə 5,7 faiz, 2012-ci ildə 7,9 faiz, 2013-cü ildə 1,1 faiz, 2014-cü ildə isə 2,4 faiz indeksləşdirilmişdir.

Azərbaycan Respublikasının Prezidenti 2015-ci il yanvarın 26-da “Əmək pensiyalarının sığorta hissəsinin indeksləşdirilməsi haqqında” növbəti Sərəncam imzalamışdır. Bu sərəncama əsasən, 2014-cü il üzrə istehlak qiymətləri indeksinə uyğun olaraq, əmək pensiyalarının sığorta hissəsi və fərdi uçot sistemində fərdi hesabların sığorta hissəsində toplanan pensiya kapitalı məbləğlərinin 2015-ci il 1 yanvar tarixdən indeksləşdirilməsi nəzərdə tutulmuşdur.

Əmək pensiyalarının sığorta hissəsinin indeksləşdirilməsi pensiyanın ümumi məbləğindən baza hissə, yəni 100 manat çıxılmaqla qalan məbləğə 1,4 faiz (2014-cü il üzrə istehlak qiymətləri indeksi) əlavə edilməklə aparılacaqdır.

“Əmək pensiyalarının sığorta hissəsinin indeksləşdirilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin Sərəncamı dövlət qulluqçuları və hərbi qulluqçular istisna olmaqla, muxtar respublika üzrə 48 min 100 nəfər əmək pensiyaçısına və yaxud ümumi əmək pensiyaçılarının 93 faizinə şamil olunacaqdır.

Muxtar respublikamızda əmək pensiyalarının sığorta hissəsinin indeksləşdirilməsi ilə əlaqədar ölkə Prezidentinin imzaladığı sərəncamın operativ icra olunması üçün Naxçıvan Muxtar Respublikası Dövlət Sosial Müdafiə Fondu tərəfindən lazımi tədbirlər görülür.

Yuxarıda qeyd edilən kateqoriyadan olan əmək pensiyaçıları istisna olmaqla, bütün növ əmək pensiyaçılarının pensiyalarının sığorta hissəsində fondun rayon (şəhər) şöbələri tərəfindən 2014-cü il üzrə istehlak qiymətləri indeksinə uyğun olaraq, 1,4 faiz artım aparılır. Bu proses qısa müddətdə başa çatdırılacaqdır. Əmək pensiyaçıları 2015-ci ilin fevral ayında pensiyalarını artımlarla birlikdə, o cümlədən yanvar ayı üzrə artım da daxil olmaqla alacaqlar.

Əmək pensiyalarının sığorta hissəsində müvafiq artımların aparılması ilə yanaşı, fərdi uçot sistemində sığortaolunanların fərdi hesablarında toplanmış pensiya kapitalı məbləğlərinin də 1,4 faiz indeksləşdirilməsi aparılacaqdır.

***Naxçıvan Muxtar Respublikası Dövlət Sosial Müdafiə Fondunun mətbuat xidməti***

# Oxucu məktubları

## Şurudluların sevinci böyükdür



***Zirvəsi qarla örtülmüş əzəmətli dağların ətəyində yerləşən Culfa rayonunun Şurud kəndi indi daha gözəl görünür. Burada aparılan quruculuq işləri nəticəsində Şurud kəndi muxtar respublikanın digər kəndləri kimi, müasir kənd görkəmi alıb. Yanvarın 22-də burada Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin iştirakı ilə sosial obyektlər istifadəyə verildi. Həmin obyektlərdən biri də məktəb binasıdır. Məktəbimizdə yenidənqurma işləri aparıldı.***

Hazırda məktəbdə 2-si elektron lövhəli olmaqla, 11 sinif otağı, kimya-biologiya və fizika laboratoriyaları, kompüter otağı, kitabxana, müəllimlər otağı, hərbi kabinə, şahmat sinfi, idman zalı, açıq idman meydançası və bufet vardır. Məktəb kollektivinin sevinci çox böyükdür. Əvvəllər məktəbimizdə nə idman zalı, nə də açıq idman meydançası var idi. İndi müəllimlərimiz şagirdlərimizə fiziki tərbiyə dərslərini rahatlıqla keçirlər. Göstərilən qayğı qarşımıza mühüm vəzifələr qoyur. Məktəb kollektivi ilə görüşən Ali Məclisin Sədri müəllim-şagird işinin düzgün qurulması, yaxşı təhsil ənənələrinin davam etdirilməsi, uğurların artırılması istiqamətində tapşırıqlar verdi. Bu tapşırıqları işimizdə devizə çevirmişik. Məktəbimizin müəllimləri bundan sonra da səylə çalışacaq, ölkəmiz və xalqımız üçün savadlı və vətənpərvər gənclər yetişdirəcəklər.

Yaradılan bu şəraitə görə qəzet vasitəsilə şurudlular sevinclərini oxucularla paylaşmaq istəyirlər. Onlar bu xoş günlərə görə dövlətimizə minnətdardırlar. Bu gün şurudlular ən xoş və rahat günlərini yaşayırlar. Bütün bunlar dövlətimizin yaratdığı şəraitin, insanlara göstərilən qayğının nəticəsidir. Naxçıvan Muxtar Respublikasının inkişafı, onun hər bir yaşayış məntəqəsinin, hər bir kəndinin abadlığı sakinləri öz yurdlarına daha sıx tellərlə bağlayır, onların qurub-yaratmaq əzmini daha da artırır.

**İlham ŞƏKƏRƏLİYEV**
***Şurud kənd tam orta məktəbinin direktoru***

## Keyfiyyətli içməli su ilə təmin olunuruq



Yetmişdən yuxarı yaşım var. Naxçıvan şəhərində doğulmuşam, hazırda Məhəmmədhüseyn Şəhriyar küçəsində yaşayıram. Demək istəyirəm ki, bu şəhərin dününü də görmüşəm, bu gününü də görürəm. Heç müqayisə etməyə dəyməz. Yəni Naxçıvandakı dəyişikliklər yerlə göy arasındakı fərqə bərabərdir. Şəhərin harasına çıxırsan, bir yenilik görürsən. Küçələr, gülzarlıqlar, yeni binalar adamın üzünə gülür, yaşamaq həvəsini artırır. Blokada şəraitində yaşayan bir diyarda bu qədər iş görmək əsl qəhrəmanlıqdır. Sözümün canı var.

Bir neçə il əvvəl eşidəndə ki, şəhərimizin su xətlərini yenidən çəkirlər, xeyli sevindim. Budur, artıq hər bir sakinin evində yeni çəkilmiş su xəttindən istifadə olunur. Eşitdiyimə görə, suyun təmizliyinin də qeydinə qalınıb ki, ondan istifadə edənlər hansısa bir xəstəliyə tutulmasınlar. Günün 24 saatı həmin xətdən istifadə etmək olar. Bu işin təşkilatçısına, su xəttinin çəkilişində iştirak edənlərə yaşlı bir şəhər sakini kimi minnətdarlığımı bildirirəm.

**Gülzar OSMANOVA**
***Naxçıvan şəhər sakini***

## Sağlamlığımızın qorunmasına böyük qayğı göstərilir



***Hörmətli redaksiya!***

Mənim 63 yaşım var: şəkər və ürək xəstəsiyəm. Həyat yoldaşım da şəkər və dializ xəstəsidir.

Bu məktubu sizə yazmaqda məqsədim ailəmiz adından bütün bölgələrdə quruculuq tədbirləri həyata keçirən, müasir standartlara cavab verən ən mükəmməl tibbi avadanlıqlarla təmin edilmiş xəstəxanalar tikdirən dövlətimizə minnətdarlığımı bildirməkdir.

Həyat yoldaşım Zərqələm müəllimə haliyədə Naxçıvan şəhərindəki Diaqnostika-Müalicə Mərkəzində dializ alır. Burada yaradılan səliqə-sahman, vaxtlı-vaxtında aparılan laborator yoxlamalar nəticəsində hər bir xəstə özünü gümrah hiss edir. O kəslərdən biri də bizik.

Bu yaxınlarda infarkt keçirmək təhlükəsi ilə üz-üzə qalmışdım. Diaqnostika-Müalicə Mərkəzinin həkimi, kardioloq Mahir həkim məni müayinə edib angioqrafiya əməliyyatı olunmağımı tövsiyə etdi. Əməliyyatdan öncə lazım olan bütün analizlərdən keçdim və angioqrafiya əməliyyatı oluna biləcəyim qənaətinə gəlindi. Əməliyyat uğurla başa çatdı, şükürlər olsun ki, indi özümü daha yaxşı hiss edirəm; daha əvvəlki kimi ürəkdə ağrı, halsızlıq, yüksək təzyiq kimi narahatedici vəziyyətlə qarşılaşmıram. Bütün bunlar əməliyyat otağında qaldı.

Müalicə prosesi davam edir. Hər ötən gün özümü daha gümrah hiss edirəm. İnanıram ki, bu proses tam başa çatdıqdan sonra daha da yaxşı olacağam.

Diaqnostika-Müalicə Mərkəzindəki gənc həkimlər mənim kimi çox xəstələrə şəfa bəxş etdilər və bəxş edəcəklər. Onlara “Şəfalı əlləriniz var olsun”, – deyirəm.

Həmvətənlərimə üzümü tutub demək istəyirəm ki, uzaqlara gedib özünüzə zəhmət verməyin. Bizim savadlı və bacarıqlı həkimlərimiz çoxdur, bu həkimlərin Naxçıvanda uğurlu müalicə aparmaları üçün müasir standartlara uyğun tibbi avadanlıqlar kifayət qədərdir. Sadəcə, bu həkimləri tanımaq lazımdır.

**Adil SƏFƏROV**
***Naxçıvan şəhər sakini***

## Ucqar dağ kəndində keyfiyyətli rabitə xidmətindən, sürətli internetdən istifadə edirik

***Hörmətli redaksiya!***

Mən Şərur rayonunun mərkəzindən 22 kilometr aralıda, dəniz səviyyəsindən 1600 metr yüksəklikdə, hər tərəfdən əlçatmaz, ünyetməz dağlar əhatəsində yerləşən qədim tarixə malik olan bir yaşayış məntəqəsinin – Şahbulaq kəndinin sakiniyəm. Bu məktubu sizə ünvanlamaqda məqsədim keçirdiyim hisləri, sonsuz sevincimi “Şərq qapısı” qəzetinin çoxsaylı oxucuları ilə paylaşmaqdır. Sevincimin səbəbi isə mənfur ermənilərlə sərhəd zolağında boy göstərib şahlanan Şahbulaq kəndinin sakinlərinin bu gün xoş və firavan həyat sürməsidir.



Bir vaxtlar muxtar respublikanın digər kəndləri kimi, çətin günlərini yaşayan ucqar dağ kəndi Şahbulaqda bu gün təzə məktəb binası, kənd və xidmət mərkəzləri tikilib, müasir tələblər səviyyəsində yol çəkilib, körpü salınıb. Bütün bunlar ümummilli lider Heydər Əliyevin müəyyənləşdirdiyi quruculuq siyasətinin muxtar respublikada uğurla davam etdirilməsinin nəticəsidir.

1990-cı illərin əvvəllərində, o çətin və məşəqqətli günlərdə kimə desəydilər ki, doğma Şahbulağın yolları abadlaşacaq, bura qaz kəməri, telefon xətti çəkiləcək, gecə-gündüz işıqlarımız yanacaq, heç kəs inanmazdı. Həmin vaxtı bu sözləri nağıla, əfsanəyə bənzədərdik. Lakin bu gün zəhmətkeş, işgüzar, vətənpərvər insanların fədakarlığı, ulu öndərin nurlu yoluna sədaqəti nəticəsində əfsanə reallığa çevrilib. Bu gün Şahbulaqda elə bir ev yoxdur ki, orada radioqəbuledici, televizor olmasın. Bütün bunlara görə dövlətimizə minnətdarıq.

Bu gün Şahbulaq kəndinə 7 min metrdən artıq bir məsafədən fiber-optik xətt çəkilib, televiziya kanallarının yayımı, mobil telefonların işləməsi üçün texniki avadanlıqlar quraşdırılıb istismara verilib. Mən ucqar dağ kəndinin sakini bu gün internetdən istifadə edirəm, hətta kompüter vasitəsilə Bakıda və ölkəmizdən kənarda yaşayan qohumlarımızla videoqörüntüylə danışıram, ölkəmizin, hətta xarici ölkələrin televiziya kanallarını izləyə bilirəm. İstədiyim yerə dərhal zəng edə, istədiyim şəxslə telefon əlaqəsi yarada, istədiyim qədər rahat danışa bilirəm. Dediyim kimi, bütün bunlar bir vaxtlar bizim üçün nağıla bənzəyirdi, çünki əlçatmaz idi. Bu gün isə həyatımızın ayrılmaz bir parçasıdır.

Şahbulaqda yaradılan bu şəraiti gördükcə qəlbim dağa dönür, sonsuz sevinc hisləri keçirirəm. Bu sevinci bizə bəxş edən dövlətimizə bir daha minnətdarlığımı bildirirəm.

**Əşrəf BAĞIROV**
***Şahbulaq kənd sakini***

# Tələbə mübadiləsi öz bəhrələrini verir

*Naxçıvan Dövlət Universitetində tələbə mübadiləsi yolu ilə ali təhsillərini xaricdə davam etdirən tələbələrlə görüş keçirilib.*

Universitetin rektoru, AMEA-nın müxbir üzvü Saleh Məhərrəmov tədbirdə çıxış edərək universitetdə dünya təhsil sisteminə inteqrasiya, təcrübə mübadiləsi, beynəlxalq əlaqələrin inkişafı istiqamətində görülən işlərdən danışıb. Qeyd olunub ki, bolonya sisteminin tam tətbiqinə nail olunması üçün qarşıya qoyulan əsas tələblərdən biri də tələbə mobilliyidir. Bu məqsədlə universitet tələbələri Cənubi Koreyanın Kimçonq Universitetində, Türkiyə Respublikasındakı universitetlərlə dünya universitetləri arasındakı qarşılıqlı müəllim və tələbə mübadiləsi proqramı olan "Mövlana" proqramı çərçivəsində Türkiyə universitetlərində, Rusiya Federasiyasının və Ukraynanın müxtəlif ali məktəblərində bir il və ya bir semestr müddətində ali təhsil almağa göndərilirlər. Naxçıvan Dövlət Universiteti mübadilə yolu ilə gələn xarici tələbələrə də uğurla ev sahibliyi edir. Bütün bunlar ali təhsil qurumları arasında tərəfdaşlığın inkişafına, əlaqələrin möhkəmlənməsinə xidmət edir. Rektor ötən semestri xaricdə uğurla başa vuran tələbələri təbrik edərək onlara təhsillərində və ictimai işlərdə uğurlar arzulayıb.

Beynəlxalq münasibətlər və xarici dillər fakültəsinin dekanı, dosent Qurban Qurbanlı bildirib ki, rəhbərlik etdiyi fakültə universitetdə tələbə mobilliyinə görə öndə gedir. Universitetlərarası müqavilələrə əsasən, 2014-2015-ci tədris ilinin ilk semestrində 3 nəfər "ingilis dili müəllimliyi", 1 nəfər "alman dili müəllimliyi" ixtisasları üzrə Gürcüstanın Şota Rustaveli adına Batumi Dövlət Universitetində, "rus dili müəllimliyi" ixtisası üzrə təhsil alan 3 nəfər tələbə isə Rusiya Federasiyasının Penza Dövlət Universitetində təhsillərini davam etdiriblər.

Qeyd olunub ki, "Erasmus-Mundus" proqramı çərçivəsində "beynəlxalq münasibətlər" ixtisasının IV kurs tələbəsi Ağalar Məmmədov Çexiyada, "ingilis dili müəllimliyi" ixtisasının III kurs tələbəsi Güllü Rəhimova isə Rumıniyada birillik təhsil almaq hüququ qazanıblar. Bundan başqa, rus dili və ədəbiyyatının tədrisi üçün Penza Dövlət Universitetinin Rus dili xarici dil kimi kafedrasının müdiri, professor Vera Şmelkova, Fransanın Azərbaycandakı Səfirliyinin xətti ilə fransız dili üzrə mütəxəssis Andrian Pioretti universitetdə uğurlu pedaqoji fəaliyyət göstəriblər. İran İslam Respublikasının Urmiya Universitetinin professoru Əlirza Müzəffəri növbəti semestrdən Naxçıvan Dövlət Universitetində fars dili və ədəbiyyatını tədris edəcək.

"Rus dili" ixtisasının II kurs tələbəsi Elvira İsgəndərova, "alman dili" ixtisasının II kurs tələbəsi Nuranə Allahyarlı, "ingilis dili müəllimliyi" ixtisasının II kurs tələbəsi Gülnur Məmmədova çıxış edərək ali təhsillərini xaricdə davam etdirmək üçün yaradılan şəraitə görə minnətdarlıqlarını bildiriblər.

**Mehriban SULTAN**

# Qaz cihazlarının istismarı zamanı təhlükəsizlik qaydalarına riayət etmək vacibdir

*Qış fəsli ilə əlaqədar olaraq, muxtar respublika ərazisində əhalinin mavi yanacağa olan tələbatı artıb. Ötən illərin təcrübəsi onu göstərir ki, bəzi hallarda vətəndaşlar tərəfindən qaz cihazlarından təhlükəsizlik qaydalarına uyğun istifadə edilməməsi səbəbindən çox vaxt insan itkisi ilə nəticələnən partlayış, yanğın və zəhərlənmə kimi bədbəxt hadisələr baş verir.*




Yanğın baş verərsə, bu nömrələrə zəng vurun

Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyi bütün bunları nəzərə alaraq, qaz cihazları və qaz təsərrüfatı ilə bağlı təhlükəsizlik qaydalarının tələblərini bir daha nəzərə çatdırır, aşağıdakı yanğın təhlükəsizlik qaydalarına ciddi əməl olunmasını vacib hesab edir.

Qaz təsərrüfatının mövcud olduğu sahələrdə yanğın, partlayış və zəhərlənmə kimi arzuolunmaz hallardan mühafizə olunmaq üçün mülkiyyət formasından asılı olmayaraq, hər bir təşkilatın, həmçinin hər bir vətəndaşın bir sıra qaydalara, xüsusən də yanğın təhlükəsizliyi qaydalarına əməl etməsi zəruridir. Qaz təsərrüfatı ilə bağlı yanğın təhlükəsizliyi qaydalarına tikinti və quraşdırma işlərindən başlamaq lazımdır. Təyinatından asılı olmayaraq, bina və qurğulara qaz kəməri çəkilərkən kəmər binanın bünövrəsindən binaya polad qılaf daxilində keçməlidir. Qılafın daxilində qaz kəmərinin birləşmə hissələri olmamalı, kəmər torpaqdan çıxdığı yerdə zədədən mühafizə edilməlidir. Qaz kəməri binanın üstündən çəkilərsə, kəmərin aşağı hissəsindən bina örtüyünə qədər məsafə ən azı 50 santimetr olmalı, divarboyu çəkildiyi halda isə pəncərə və qapıların qarşısını kəsməməlidir. Qaz kəməri elə çəkilməlidir ki, o, başqa otaqlara deyil, bilavasitə qaz işlədən qurğunun yerləşdiyi otağa daxil olsun. Bir sıra təhlükəli hallara şərait yaratdığından lift şaxtası, havadəyişmə şaxta və kanalları, eləcə də tüstü boruları ilə qaz kəmərinin çəkilməsi qadağan olunur.

Təhlükəsizliyi təmin etmək üçün yaşayış binalarında digər tələblər də yerinə yetirilməlidir. Birinci növbədə, yaşayış binasının qaz kəməri polad borudan olmalı, suvaq altından deyil, açıq havada çəkilməlidir. Qaz cihazlarına qazın verilməsində rezin şlanqlardan istifadə olunması qəti qadağandır.

Bu qaydaların pozulması ilə yanaşı, bir sıra digər səbəblər də yaşayış evlərində yanğın baş verməsinə şərait yaradır. Məişətdə işlədilən qaz cihazlarından törənən yanğınların əsas səbəbi boru kəmərlərində, birləşmə qovşaqlarında kipliyin pozulması və qaz pilitələrinin odluqlarından qazın sızmasıdır. Təbii qaz, eləcə də mayeləşdirilmiş balon qazı hava ilə birlikdə partlayış təhlükəli qarışıqlar əmələ gətirməyə qadirdir. Elə buna görə də mənzildə və digər yerlərdə qaz qoxusu hiss etdikdə kibrit, alışqan yandırmaq, hər hansı bir elektrik qurğu və cihazlardan istifadə etmək, o cümlədən onları cərəyana qoşmaq və ayırmaq olmaz. Qazın sızması müxtəlif səbəblərdən ola bilər. Əgər sızma qaz cihazındakı kranın açıq qalmasından əmələ gəlmişsə, onu bağlamaq, mənzilin havasını birlikdə dəyişmək üçün qapı və pəncərələri açmaq, hava axını yaratmaq lazımdır. Əgər qazın sızması qaz kəmərinin və ya qaz cihazının zədələnməsindən əmələ gəlmişsə, onda qazdan istifadə etmək olmaz və təcili qaz idarəsinin qəza xidmətinə (104 nömrəsinə zəng etməklə) xəbər vermək lazımdır. Qaz kəmərlərindən, qaz balon və cihazlarından qazın sızmasını yoxlamaq üçün açıq oddan istifadə etmək qəti qadağandır. Bundan ötrü yalnız sabun məhlulundan istifadə edilməlidir.

Statistika göstərir ki, dəm qazı ilə zəhərlənmə daha çox rast gəlinən zəhərlənmələr siyahısında dördüncü yeri tutur. Havatəmizləyici bacalar və borularda dəm qazının çıxmasına maneçilik törədən nasazlıqlar yarandıqda insanlar bu qazla nəfəs almaq məcburiyyətində qalırlar. Nəticə etibarilə, dəm qazından zəhərlənmə baş verir. Kimyəvi adı karbonmonooksid (CO) olan dəm qazı təmiz halda gözə görünməyən, rəngsiz, iysiz, dadsız, havadan yüngül, suda pis həll olunan qazdır. Dəm qazı natamamyanma məhsulu olub, güclü zəhərləyici xassəyə malikdir. Bu qaz üzvi maddələrin, o cümlədən təbii qazın, neft məhsullarının və odun yanacağının natamam yanması nəticəsində əmələ gəlir. Yanma tam getməyəndə dəm qazı karbon qazına çevrilə bilmir. Normal yanma zamanı isə dəm qazı tam yanaraq karbon 4 oksidə çevrilərək tüstü boruları vasitəsilə xaric olunur.

Dəm qazı ilə zəhərlənmənin səbəbləri kimi hamam və vanna otaqlarında nəfəsliklərin olmamasını, suqızdırıcıların hamam və vanna otaqlarında quraşdırılmasını, soba ilə qızdırıcı sistemlərdə texniki təhlükəsizlik qaydalarının pozulmasını, standarta uyğun olmayan və kustar üsulla hazırlanmış qaz sobalarından və suqızdırıcılarından istifadə edilməsini, sobanın və tüstüçəkən bacanın nasaz vəziyyətdə olmasını göstərmək olar.

Zəhərlənməyə səbəb olan amillərdən biri də əhali tərəfindən yaşayış sahələrində kustar qaydada hazırlanmış qeyri-standart qızdırıcı qaz cihazlarından və suqızdırıcılarından istifadə olunmasıdır. Buna görə də, bir qayda olaraq, zavodda istehsal edilmiş qaz cihazlarından istifadə etmək məsləhət görülür. Qeyri-standart qaz cihazlarından istifadə edilməsinə, ümumiyyətlə, yol verilməməlidir.

Vətəndaşlar qaz cihazları alan zaman onun uyğunluq sertifikatını və texniki pasportunu mağaza sahiblərindən mütləq tələb etməlidirlər. Cihaz quraşdırıldıqdan sonra onun istifadə qaydaları ilə tanış olmaq vacibdir. Çünki partlayış, yanğın və dəm qazı ilə zəhərlənmə kimi qəza hadisələrinin əksəriyyəti bu qaydaları bilməzlikdən və ya onlara riayət edilməməsi səbəbindən baş verir. Bunun üçün cihazın istismarı qaydaları, avtomatik təhlükəsizlik qurğusu ilə təchiz olunub-olunmaması, tüstü borusunun düzgün quraşdırılması, ən vacibi isə hansı şəraitdə normal rejimdə işləməsi məsələlərini dəqiq bilmək və yadda saxlamaq lazımdır.

Qazla əlaqədar təhlükəsizlik qaydalarını hamı bilməli, ona hər bir vətəndaş ciddi əməl etməlidir. Unutmamalıyıq ki, bu qaydalara əməl etməməklə biz zəhərlənmə, yanğın, partlayış təhlükəsi yaradır, özümüzü, ailə üzvlərimizi, ətrafdakı insanları bədbəxt hadisələrə düçar edirik.

*Qaz cihazları ilə bağlı hər hansı təhlükə ilə üzləşdikdə dərhal Fövqəladə Hallar Nazirliyinin "112" qaynar telefon xəttinə və ya Dövlət Yanğın Təhlükəsizliyi şöbələrinin "101" xidmətinə məlumat verilməlidir. Unutmayaq ki, təhlükəsizliyimiz öz əlimizdədir.*

**Mirtaleh SEYİDOV**
*Fövqəladə Hallar Nazirliyinin bölmə rəisi, daxili xidmət kapitanı*

*Muxtar respublikanın səhiyyə müəssisələrində çalışan və risk qrupuna daxil olan ginekologiya, stomatologiya, cərrahiyyə, hemodializ, laboratoriya şöbələri işçilərinin, eləcə də obliqat qruplarının hepatit B infeksiyasına qarşı vaksinasiya olunması üçün fevralın 1-dən 28-nə kimi immunlaşdırma aylığı keçiriləcəkdir.*

# Səhiyyə müəssisələrində immunlaşdırma aylığı keçiriləcək

Bu məqsədlə hazırlıq işləri başa çatdırılıb. Rayon mərkəzi xəstəxanaları və Naxçıvan şəhərindəki tibb müəssisələrində tədbirin təşkili üçün məsul şəxslər təyin edilib. Vaksinasiyaya cəlb ediləcək tibb işçilərinin siyahıları tərtib olunub və onlardan qan götürülərək hepatit B virusuna qarşı analiz üçün Naxçıvan Muxtar Respublikası QİÇS-lə Mübarizə və Profilaktika Mərkəzinin laboratoriyasına göndərilib. Rayon mərkəzi xəstəxanalarında hepatit B vaksininin vurulması üçün vaksinator da daxil olmaqla üç, Naxçıvan şəhərində yerləşən bütün tibb müəssisələrində isə dörd orta tibb işçisindən ibarət briqadalar yaradılıb və tibb işçiləri lazımi səviyyədə təlimatlandırılıb.

Naxçıvan Muxtar Respublikası QİÇS-lə Mübarizə və Profilaktika Mərkəzinin laboratoriyasına göndərilən qan nümunələrinin hepatit B virusuna seroloji diaqnostikası aparılması, müayinənin nəticələri təsdiq edildikdən sonra hər bir tibb işçisi haqda məlumatın qan müayinələrini göndərildiyi tibb müəssisəsinə qaytarılması təmin olunacaqdır. Naxçıvan Muxtar Respublikası Gigiyena və Epidemiologiya Mərkəzi bu tədbirin lazımi səviyyədə həyata keçirilməsi məqsədilə hepatit B vaksininin bölgüsünə və təlimat əsasında ərazilərə çatdırılmasına ciddi nəzarət edəcək.

Tədbirin mahiyyət və əhəmiyyətinin öyrədilməsi üçün aid tibb işçilərinin iştirakı ilə Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyində elmi-praktik seminar keçirilib. Tibbi yardımın təşkili şöbəsinin baş məsləhətçi-epidemioloqu Zülfiyyə Həsənova bildirib ki, tibb işçilərinin bu təhlükəli infeksiyadan qorunması məqsədilə artıq böyükyaşlılar üçün 4 min dozadan çox vaksin alınıb muxtar respublikaya gətirilib. İmmunlaşma tibb işçiləri arasında 3 mərhələdə aparılacaqdır. İlk iki mərhələdən 2 ay sonra üçüncü vaksin tamamlanacaqdır. Qrafik əsasında üç vaksini alan hər bir tibb işçisi hepatit B virusuna yoluxma riskindən tamamilə müdafiə olunacaqdır. Tibb işçiləri arasında immunlaşmanın artıq dörd ildir ki, həyata keçirildiyini xatırladan epidemioloq vaksinasiyanın səmərəliliyi üçün səhiyyə maarifinin də mühüm əhəmiyyət kəsb etdiyini bildirib.

***Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin mətbuat xidməti***

# Babək rayonunda "Nuh yurdu" intellektual oyunu keçirilib

Babək Rayon Gənclər və İdman İdarəsi, Təhsil Şöbəsi və Yeni Azərbaycan Partiyası Babək Rayon Təşkilatı Gənclər Birliyinin birgə təşkilatçılığı ilə 2 fevral – Gənclər Gününə həsr olunmuş Babək rayon ümumtəhsil məktəblərinin komandaları arasında "Nuh yurdu" intellektual oyunu keçirilib. 15 komandanın mübarizə apardığı müsabiqənin nəticəsinə əsasən, Güznüt kənd tam orta məktəbinin komandası qalib adını qazanıb. Şıxmahmud kənd tam orta məktəbinin komandası ikinci, Nehrəm kənd 2 nömrəli tam orta məktəbin komandası isə üçüncü olub.

Sonda qaliblərə təşkilatçılar tərəfindən diplomlar təqdim edilib.

**Ceyhun MƏMMƏDOV**

# İşaxtaran vətəndaşların nəzərinə!

Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Məşğulluq Xidməti Naxçıvan Regional Peşə Tədris Mərkəzində "xalçaçı" peşəsi üzrə kurs təşkil edir.

Tədrisin müddəti 2 aydır.

Peşə hazırlığı kursunda iştirak etmək istəyənlər 2015-ci il fevral ayının 16-dək tələb olunan aşağıdakı sənədləri yaşadıqları ərazi üzrə Məşğulluq mərkəzlərinə təqdim edə bilərlər:

1. *Yaşayış yerindən arayış*
2. *Şəxsiyyət vəsiqəsinin surəti*
3. *Tibbi yoxlama haqqında arayış*

**Əlaqə telefonu: 545-32-33**

### Bildiriş

"Qələbə" təşkilatının nizamnamə şəhadətnaməsi, möhür və ştampı itdiyindən etibarsız sayılır və fəaliyyəti dayandırıldığından ləğv olunur.

* * *

"Gənclik İdman Sağlamlıq Mərkəzi" İctimai Birliyinin şəhadətnaməsi, möhür və ştampı itdiyindən etibarsız sayılır və fəaliyyəti dayandırıldığından ləğv olunur.

ŞƏRQ qapısı
Baş redaktor: TURAL SƏFƏROV

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi, 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Səyyar Məmmədov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 4020. Sifariş № 72